VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 213-216
Telif Haqqı©Varlıq Dergisi

Prof. Dr. Zehtabi'nin Seçilmiş Şeirleri

Dilək

Bir dilək,
Bir diləyim var.
O gün intizarla başa çatanda,
Elim zəncirini qırıb atanda,
Ədalət divanı qurulan zaman,
Şən nəğməsindən dolanda Təbriz,
İxtiyar əlinə alanda Təbriz,
Başım ağarsa da bir oğlan kimi,
Başıma gələni armağan kimi,
Ərk'dən xalqıma səpəcəyəm mən.
Müqəddəs arzu, gözəl bir dilək,
Bu dilək uğrunda təqdi edəcək
Bir ürəyim var.
Düşənbə (Stalinabad), Yataqxana 30.08.1953

Doğuldum!

Mən neyləyim ey şux ki, divanə doğuldum,
El dərdlərinin şəm'inə pərvanə doğuldum.
Qəlbim o yetimlərdən, inan, ayrılabilmir,
Sanki oların tellərinə şanə doğuldum.

Təqsir mənim yox, bu zamanınkıdır ey şux,
Gülzara deyil, mən üzü tufanə doğuldum.
Üsyan edirəm eşqə, uzaqlaş mənə baxma,
Gəncəmsə dV eşq-ülfətə biganə doğuldum.
Sus, sus, nə dedim, eşqi də rədd etmək olar mı?!
Mən ki, girərək eşqilə peymanə doğuldum…
Pərvanə miyəm, şəm miyəm Gülşən'ə bilməm,
Qəmxar mı, aşiq mi, görən, yanə doğuldum?!
Bakı, Yataqxana, 04.11.1956

Şəm və Pərvanə

Şəm dedi bir gecə aşiqi pərvanəyə:
Ağlıram öz halıma, sən də sevirsən məni.
Mən də nə gördüm yazıq, qəlbimi od yandırır,
Get gül açan çöllərə, gəz çəməni, gülşəni,
Ta səni oxşatmasın xalq da divanəyə.
***
Düzdü, yanırsan dedi, nur ələnir hər yana,
Şəmlə yarır zülməti, mən şığa mayiləm,
İstirəm od yandıra zülmət ilə qəmləri,
İstiri qəlbim mənim odda yanıb nur ola!
Bakı, 02.05.1961

Həqiqətin Gücü

Haq söz boğular, leyk həqiqət yaşar axır,
Feryadın azad səslərə ellər qoşar axir.
Bir yerdə ki, alimlərə korlar ola rəhbər,
Aqil kişilər sussa da beş gün, coşar axır,
Beş gün olunar səd önü coşqun selin, amma
Qanun-i təbətdi ki, səddən daşar axır.

Qurd olsa çoban, boş qalacaqdır quzulardan,
Yaşıl çəmən, amma dolacaqdır dışar axır.
Gördükdə bir arif qocaman bir eli darda,
Aydındı dedi, şirvanı qırqı aşar axır.
Kəsmir deyərək, əl çəkib ümmidini kəsmə,
Bir gün kötüyü, bil, kəsəcəkdir mışar axır.
Haqqı verən olmaz, gərək almaq onu zorla,
Haqq istəyəsən susma, igit çarpışar axır.
El volkanına baxma ki, sakitləşib indi,
Qəlbindəki atəşlə yanıb odlaşar axır.
Hər qədr ki, püflənsə şişər, zahirə baxma,
Yeldir içi çün partlayacaqdır boşar axır.
Nur elçisi fəryad eləyər, inləməz amma,
Möhnətlərə haqqın arayan tablaşar axır.
"Gülşən" ki, sevir xalqın özündən daha artıq,
Eldən savayı hər nə ki varsa, boşar axır.
Bakı 19.01.1962

Öz Əlimlə, Öz Dilimlə

Zərrələrin ürəyini açabilsəm
Öz əlimlə,
Öz dilimlə;
Kəhkəşanın qucağına uçabilsəm
Qanadımla,
Öz adımla;
Züləmata nur saçabilsəm
Öz gözümlə,
Öz sözümlə;
Əsarətdən qaçabilsəm
Qudrətimlə, hekmətimlə;

Azadlığın, biliklərin
Zirvəsinə çıxabilsəm
Hünərimlə, öz tərimlə,
Dost əlləri əllərimdə,
Bütün azad ellər kimi
Qarlı dağlar qucağından
Axıb gələn sellər kimi
Azad bəşər gülzarına
gətirərəm, öz elimlə,
Öz dilimlə
Məxsus olan
İnci- inci armağanlar.
Döyüşlərin qucağından
Doğacaqdır o zamanlar.

Hannover, 09.08.1975